# SUVARILAN VƏ MELİORASİYA OLUNMUŞ TORPAQLARIN UÇOT VƏ MONİTORİNQİNİN APARILMASI

**Rəhimova A.H.**

*"AzHvəM" EİB*

*afatrahimova@rambler.ru*

İyirminci əsrin əvvəllərindən başlayaraq indiyə qədər respublikanın kənd təsərrüfatı üzrə əsas ərzaq mənbəyi olan Kür-Araz ovalığı küllü miqdarda ekstentiv texnogen yükləmələrə məruz qalmışdır.

Respublikada torpaq islahatlarının keçirilməsi və torpaq üzərində mülkiyyət formasının dəyişdirilməsi və yeni torpaq sahələrinin suvarmaya cəlb edilməsi ilə əlaqədar suvarılan və meliorasiya olunmuş torpaqların vəziyyətinə nəzarətin, uçotu və monitorinqin aparılması da dəyişilməlidir.

Kecmişdə respublikada suvarılan torpaqların uçotu və monitorinqi bütün SSRİ üzrə vahidləşdirilmiş metodikaya uyğun aparılırdısa, indi artıq yeni təsərrüfatçılıq şəraitləri, müxtəlif regionların təbii iqlim zonaları nəzərə alınmaqla differensasiyalı aparılmalıdır. Ona görə də respublikanın suvarılan və meliorasiya olunan torpaqlarının real vəziyyətinin qiymətləndirilməsi və yaxşılaşdırılması üzrə tədbirlərin planlaşdırılması baxımından onların uçotu və monitorinqinin yerli şəraitlərin nəzərə alınması ilə aparılması mühüm elmi-praktiki əhəmiyyət kəsb edir.

1,43 mln.ha suvarılan torpaqlardan 631 min hektarı müxtəlif dərəcəli şorlaşmaya məruz qalıb, o cümlədən 395 min ha zəif, 140 min ha orta, 66 min ha yüksək, təqribən 30 min ha yuxarı sahə isə şiddətli dərəcədə şorlaşmaya məruz qalmışdır. Kür-Araz ovalığının 800 min hektara yaxın suvarılan torpaqlarının 547 min hektarı süni drenlənmişdir və onların meliorativ vəziyyəti aşağıdakı kimidir: yaxşı meliorativ rejimdə olan 200 min ha, kafi-278 min ha, qeyri-kafi meliorativ rejimdə olan isə 322min ha-a yaxındır.

Hidrorejim dəyişiklikləri yerüstü və yeraltı su mənbələrində suyun keyfiyyətini əsaslı surətdə dəyişib. Məsələn, əsas su arteriyaları olan Kür-Araz çaylarının minerallığı 50 il müddətində 3-5 dəfə artmış, kimyəvi tərkibi isə ciddi dəyişikliyə məruz qalmışdır. Digər tərəfdən ovalığın ərazisindən hər il 5 mlrd. kub metr müxtəlif kimyəvi tərkibli suların dənizə axıdılması və əvəzində aerasiyadan keçən yeni tərkibli suların daxil olması da kəskin ekoloji-meliorativ vəziyyət yaradır.

Ovalıqda qrunt sularının orta səviyyəsi 50 il müddətində 0-35 m qalxmış, onların minerallığı isə 0,7 q/l artmışdır. 50 il müddətində aerasiya zonasında duzların quru qalığı 0,03 % artmışdır.

Proses belə inkişaf edərsə 3-cü minilliyin əvvəllərində ümumi suvarılan torpaq fondunun bir hissəsinin kənd təsərrüfatı dövriyyəsindən çıxacağı və əksinə yararlı sahələrin qıtlığının baş verəcəyi gözlənilir. Bu baxımdan ekoloji-meliorativ monitorinqin kontekstində torpaq, torpaqda yerləşdirilmiş

sistemlər, bitki örtüyü, suvarma mənbələri və atmosferin öyrənilməsi indiki dövrdə xüsusilə vacibdir.

Meliorativ və suvarma sistemlərinin inşası və istismarı dövründə təbii proseslərdə baş verə biləcək dəyişikliklərin istiqaməti və intensivliyini izləmək üçün ovalığın bəzi regionlarında fəaliyyət göstərən sistemli ekoloji-meliorativ monitorinqin təkmilləşdirilməsi və bəzi hallarda yenidən yaradılması məqsədə müvafiq hesab olunmalıdır.

Respublikanın suvarılan massivində meliorativ vəziyyətin planlı şəkildə öyrənilməsi, su normalarının nizamlanması və suvarma rejimlərinə təsirlər edilməsi üzrə tədbirlərin işlənib hazirlanması, hidrogeoloji-meliorativ şəraitlərin dəyişilmələrinin vaxtında qarşısının alınması və meliorasiya olunmuş massivlərin səmərəli istifadəsi üzrə tövsiyələrin tərtib edilməsi meliorasiya və su təsərrüfatı sahəsində müşahidə sistemləri qarşısında duran əsas məsələdir.